Ədəbiyyat qəzeti

# Cəlil QƏRİBOĞLU-80



*Hörmətli Cəlil müəllim!*

*Sizi - tanınmış ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professoru 80 illik yubileyiniz münasibətilə təbrik edirik.*

*Siz 26 iyul 1945-ci ildə Gəncə şəhərində anadan olmusunuz. 1964-cü ildə Gəncə şəhərində orta məktəbi bitirərək Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1969-cu ildə həmin fakültəni bitirmisiniz. 1969-1970-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filologiya fakültəsinin Slavyanşünaslıq kafedrasında yeni ixtisas üzrə (serb ədəbiyyatı) birillik staj keçmiş, 1970-1973-cü illərdə həmin kafedrada slavyan və Balkan ölkələrinin ədəbiyyatı ixtisası üzrə məqsədli aspiranturada əyani təhsil almısınız. 1974-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Serb romantik poeziyası və Şərq" mövzusunda namizədlik, 1990-cı ildə isə Bakı Dövlət Universitetində "Azərbaycan-Cənubi slavyan ədəbiyyatlarının qarşılıqlı əlaqələri və təmasları" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmiş, 1992-ci ildə professor elmi adını almısınız.*

*1974-cü ilin mart ayından BDU-nun filologiya fakültəsinin Dünya ədəbiyyatı kafedrasında elmi və pedaqoji fəaliyyətə başlamısınız. Bu kafedrada müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışmısınız. 1989-cu ildən bu günə qədər BDU-nun Dünya ədəbiyyatı kafedrasının müdiri vəzifəsində işləyirsiniz.*

*Sizin elmi fəaliyyətiniz əsasən Azərbaycan, slavyan (serb, Bosniya və Herseqovina), şərqşünaslıq və Qərbi Avropa xalqlarının ədəbiyyatlarının və folklorunun ədəbi-tarixi və nəzəri-metodoloji problemləri, eləcə də Azərbaycan və dünya ədəbiyyatlarının qarşılıqlı əlaqələri və müqayisəli ədəbiyyatşünaslığın aktual problemləri, slavyan və türk xalqlarının folklorunun qarşılıqlı əlaqələri ilə bağlıdır. İlk dəfə olaraq Azərbaycanda "Qədim Şərq ədəbiyyatı" fənninin proqramını və dərsliyini, eləcə də ali məktəblər üçün "Qərbi Avropa ədəbiyyatı. Orta əsrlər və İntibah dövrü" dərsliyini hazırlamısınız. Azərbaycan və dünya klassik və müasir ədəbiyyatının fərqli problemləri sahəsində Asərbaycan, ingilis və rus dillərində səkkiz monoqrafiya, yerli və xarici mətbuatda 300-dən artıq elmi və elmi-publisistik məqalə, dərs vəsaitləri, tədris proqramları hazırlayıb çap etdirmisiniz. Sizin rəhbərliyiniz altında 50-dən artıq filologiya üzrə fəlsəfə doktoru, 3 elmlər doktoru dissertasiya müdafiə olunmuşdur. Dünyanın bir sıra ölkələrində və Azərbaycanda keçirilən çoxsaylı elmi konfrans, qurultay, simpoziumlarda elmi məruzələrlə çıxış etmiş, bir neçə nüfuzlu elmi konfrans və qurultayların təşkilində bilavasitə iştirak etmisiniz. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən "Dünya Uşaq ədəbiyyatından seçmələr" seriyasında 10 cildlik kitabların tərtibçisi olmuş, onlara redaktorluq etmiş və ön söz yazmısınız. On cildliyə sizin tərcümənizdə J.Q.Ferreyranın "Cəsur Joanın qeyri-adi macəraları" romanı da daxil edilmişdir. Görkəmli rus alimi İ.M.Tronskinin "Antik ədəbiyyat tarixi" adlı dərsliyini (Etibar Kərimli ilə), Q.Floberin "Sadəlövh" povestini, İvo Andriçin "Drina körpüsü" romanını, "Cərzələz Əlinin yolu" və bir sıra digər hekayələrini, V.Çərkəzin "Dişi qurd" hekayəsini serb dilindən, K.Hamsunun "Sirli dərd", F.Mouetin "Qurdları qorxutma" povestindən bir parçanı, P.Laqerkvistin hekayələrini Azərbaycan dilinə tərcümə edərək çap etdirmisiniz.*

*Siz 1993-cü ildə Bakı Asiya Universitetini təsis etmiş, həmin Universitet fəaliyyətini dayandırana qədər onun rektoru olmusunuz. 10 ilə yaxın müddətdə Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiysının Ekspert Şurasının, Elmi Tədqiqatları Əlaqələndirmə Şurası nəzdində Filologiya Problemləri Üzrə Elmi Şuranın (AMEA nəzdində) üzvü, Bakı Dövlət Universitetinin nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsini keçirən Dissertasiya Şurasının sədr müavini və həmin Şuranın nəzdində fəaliyyət göstərən Elmi Seminarın sədri olmusunuz. Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü və bu şuranın tərkibində fəaliyyət göstərən Elmi seminarın sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universitetinin fəaliyyət göstərən Dissertasiya Şurasının tərkibində fəaliyyət göstərən Elmi seminarın üzvüsünüz.*

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2009-cu ildə Əməkdar müəllim fəxri adına layiq görülmüsünüz. Həmin ildə Türk Kültürü Araşdırma Kurumu sizə "Türk Halk Kültürüne Hizmet" ödülü vermişdir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" yubiley medalı, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmusunuz.*

*Hörmətli Cəlil müəllim!*

*Sizi bir daha 80 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.*

*Azərbaycan Yazıçılar Birliyi*